**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

*Əlyazma hüququnda*

**TÜRKAN FEYRUZ qızı ABBASOVA**

# AZƏRBAYCANIN ƏMƏKDAR RƏSSAMI ƏLİ VERDİYEVİN YARADICILIĞI

**İxtisas: 6215.01 – "Təsviri sənət"**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** ***Arif Möhübəli oğlu Əziz***
*Xalq rəssamı, professor*

**Rəsmi opponentlər:** ***Səlhab İsa oğlu Məmmədov***
*Xalq rəssamı, professor*

***Nigar Abdulla qızı Axundova***
*sənətşünaslıq üzrə fəlsəfə doktoru*

**Aparıcı təşkilat:** **Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu**

Müdafiə **"29" "noyabr" 2018-ci il** saat **14:00-da** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində yaradılmış FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1029, Bakı şəh., Heydər Əliyev prospekti 26, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat "**29**" "**oktyabr**" **2018-ci** ildə göndərilmişdir.

**FD.02.191 Dissertasiya Şurasının elmi katibi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent:** **X.Z.Əsgərova**

## Dissertasiyanın ümumi səciyyəsi

**Tədqiqatın aktuallığı.** Çağdaş Azərbaycan təsviri sənətinin görkəmli nümayəndələrindən biri olan Azərbaycanın Əməkdar rəssamı Əli Verdiyevin əsərləri bənzərsizliyi, navatorluğu və özünəməxsus üslub xüsusiyyətləri ilə fərqlənir. Onun əsərlərinin təsviri sənət tariximizin parlaq nümunələrindən hesab edilməsi qəbulolunandır. Əli Verdiyev bütün yaradıcılığı boyu müxtəlif janr və mövzularda yaratmış olduğu çoxsaylı əsərləri ilə özünü istedadlı və bacarıqlı rəssam kimi təsdiqləməyə nail olmuşdur. Əli Verdiyevin təsviri sənət tariximizin zəngin mədəni irsinin və sənət ənənələrinin formalaşmasındakı rolu məhz tədqiqat işinin aktuallığını şərtləndirən amillərdəndir.

Əli Verdiyevin yaradıcılığında xalqımızın milli-mənəvi dünyası, estetik baxışları, məişət aləmi, adət-ənənələri, həyat tərzi, dünya görüşü və tarixi, fəhlələrin, müasirlərinin və tarixi şəxsiyyətlərin obrazları əks olunmuşdur. Bədii ifadənin realistik vasitələrindən istifadə edən rəssam öz əsərlərini böyük ustalıqla yaratmışdır. Onun əsərləri ifadə dilinin orijinallığı və fərdiliyi, monumentallığı və üslub reallığı ilə fərqlənir.

Qeyd edək ki, Əli Verdiyevin yaradıcılığı, təsviri sənətimizin milli özünəməxsusluğunun öyrənilməsi və yaradıcılıq baxımdan dərk olunmasının ən gözəl nümunəsidir. Rəssam özündən əvvəl mövcud olmuş bədii irsin ən gözəl ənənələrini və realist sənətin əsaslı nailiyyətlərini əsas tutaraq müxtəlif mövzu, üslub, janr seçimi ilə diqqəti cəlb edən dəyərli sənət nümunələri yaratmışdır.

Əsərlərinin əksəriyyəti irihəcmliliyi ilə seçilir ki, bu da öz növbəsində onların monumetal divar rəsmlərini xatırlamasını şərtləndirir. Milli realizm ənənələrindən qaynaqlanan bu əsərlərin Əli Verdiyev yaradıcılığında yeni bir səhifə olduğunu vurğulamaq olar. Ən önəmli cəhət isə obrazların mənəvi-psixoloji tutum daşıması ilə bağlıdır. Rəssam hər hansı bir süjetin əks olunduğu mühiti səciyyələndirən ifadəli surətlər yaratmış, bəzi hissələrdə isə milli memarlıq elementlərinə də yer ayırmağa çalışmışdı. Bütün bu sadalanan bədii məziyyətlər Əli Verdiyev yaradıcılığının geniş diapazona, zəngin bədii təxəyyülə, incə zövqə malik olduğunun göstəricisidir.

Rəssamın yaradıcılığı istər janr, istərsə də mövzu rəngarəngliyi, fərdi

metod və üslub xüsusiyyətləri ilə seçilir. Hər zaman yeni bədii təsvir vasitələri axtarışında olan rəssam daima yeniliyə can atmış, təsviretmə xüsusiyyətləri ilə diqqəti cəlb etmişdir. Əli Verdiyevin əsərləri zamanın təzadlı axarında özünün bədii dəyərini qoruya bilib. Belə ki, cəmiyyət qarşısında öz böyük məsuliyyətini hiss edən rəssam daim daha mühüm, aktual mövzuların axtarışında olmuşdur. Onun əsərləri hər dövr üçün çox maraqlı və aktualdır.

Yuxarıda qeyd olunanları və istedadlı rəssamın yaradıcılığının bu günə kimi geniş, hərtərəfli tədqiq olunmamasını nəzərə alsaq, o zaman Əli Verdiyevin yaradıcılığının dərindən öyrənilməsinə və təhlilinə ehtiyac duyulur.

Mövzunun aktuallığının digər bir səbəbi Əli Verdiyevin yaradıcılığının təsvir və təhlilində müəyyən boşluqların yaranmasıdır. Bu günə kimi hələ də tədqiq olunmamış mövcud materialların varlığı hazırki işin aktuallığını artırır.

**Problemin işlənmə dərəcəsi.** Əli Verdiyevin milli rəngkarlığımızın inkişafında mühüm rol oynamısına baxmayaraq, əfsuslar olsun ki, rəssamın yaradıcılığı kifayət qədər öyrənilməmiş, Azərbaycan təsviri sənətindəki rolu və xidmətləri haqqında yetəri qədər material mövcud deyil. Demək olar ki, Azərbaycanın Əməkdar rəssamı Əli Verdiyevin yaradıcılığına müxtəlif dövrlərdə müxtəlif tədqiqatçılar diqqət yetirmiş, onun yaradıcılığı ilə bağlı müəyyən araşdırmalar aparmışlar. Elmi xarakter daşımayan bu araşdırmalara Əli Verdiyevin həyat və yaradıcılığına aid Azərbaycanda, Türkiyədə, Rusiyada sənətşünas, jurnalist və sənət dostları tərəfindən fraqmentar yanaşma xarakterli məqalələr, kataloqlar və müxtəlif ölçülü kitablar daxildir.

Bu mənada Nürəddin Həbibov, Mürsəl Nəcəfov, Ziyadxan Əliyev, Tahir Salahov, İntiqam Mehdiyev, Etibar Babayev, Dilsuz Mustafayev, Çengiz Ünlünün dərc olunan məqalələrini və s. qeyd etmək olar. Adları qeyd olunan sənətşünas və rəssamın həmkarları yazdıqları məqalələrdə az da olsa Əli Verdiyevin yaradıcılığını şərh etmiş və müəyyən mənada əsərlərini təsvir və təhlil etmişlər.

Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı Tahir Salahov 5 dekabr 1970-ci il tarixli "Ədəbiyyat və İncəsənət" qəzetində "Yolun başlanğıcı" adlı məqaləsində Əli Verdiyevə şöhrət gətirən "Savadsızlığın ləğvi" əsəri haqqında kifayət qədər dolğun və dürüst təs-

vir və təhlil verilmişdir. Məqalədə sözü gedən əsərin bədii-estetik həllindən tutmuş bədii-texniki xüsusiyyətlərinə kimi rəssam nəzəri ilə olduqca əhatəli şərh öz əksini tapmışdır.

Bu yazılarda rəssamın yaradıcılıq manerasına fərdi münasibətlərini bildirməklə yanaşı, müxtəlif dövrlərdə iştirak etdiyi yerli və beynəlxalq sərgilərdə iştirakı haqqında da müəyyən məlumatlar verilmişdir.

Bundan əlavə Azərbaycan təsviri sənət tarixi, tənqidi və nəzəriyyəsinə dair kitablar, monoqrafiyalar, məqalələr, tədqiqat işləri yazılmış bir çox dəyərli mənbələr vardır ki, onlarda digər rəssamlarla yanaşı Əli Verdiyevin də yaradıcılığının bədii-estetik xüsusiyyətləri tədqiq və təhlil edilmişdir.

Qeyd etmək lazımdır ki, bu müəlliflər öz kitab və məqalələrində Azərbaycan incəsənətinin inkişaf yollarını bütöv bir aspektdən nəzərdən keçirmiş, Əli Verdiyevin yaradıcılığına ümumi kontekstdən yanaşmışlar. Buradan da aydın olur ki, Əməkdar rəssam Əli Verdiyevin yaradıcılığı bu vaxta qədər ətraflı və tam şəkildə işıqlandırılmamışdır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Respublikanın Əməkdar rəssamı, professor Əli Verdiyev yaradıcılığını xronoloji ardıcıllıqla öyrənilərək, əsərlərinin bədii təhlili əsasında sistemləşdirilməsi, rəssamın yaradıcılığı haqda geniş təsəvvür yaratmaq və onun fərdi yaradıcılıq xüsusiyyətlərini müəyyənləşdirməkdir.

Qarşıya qoyulan məqsədə çatmaq üçün dissertasiya işi qarşısında aşağıdakı vəzifələr qoyulmuşdu:

- Əli Verdiyevin bir rəssam kimi formalaşmasına təsir etmiş tarixi şəraiti diqqətlə nəzərdən keçirmək;
- rəssamın yaradıcılığının inkişafında böyük əhəmiyyətə malik olan sosial-mənəvi və bədii amilləri öyrənmək və sənətşünaslıq kontekstindən təhlil etmək;
- əsərlərin təhlilinə istinad edərək müəllifin fərdi yaradıcılıq və bədii üslub prinsiplərini araşdırmaq;
- Əli Verdiyevin zəngin yaradıcılıq irsini dərindən və diqqətlə öyrənərək, rəssamın milli təsviri sənətimizin inkişafındakı rolunu müəyyənləşdirmək;
- Əli Verdiyevin yaradıcılığı haqda tam təsəvvür yaratmaq məqsədi ilə bütün əsərlərini bir araya toplamaq;
- Rəssamın yaradıcılığında süjetli kompozisiyaların, portret və məi-

şət janrlarının tədqiqi və təhlili prinsiplərinə əsaslanaraq fərdi üslub xüsusiyyətlərinin müəyyənləşdirmək;

- Əli Verdiyevin Azərbaycan təsviri sənətinin inkişafındakı xidmətlərini müəyyən edərək, rəssamın yaradıcılığını dövrləşdirmək və sistemləşdirmək.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini rəssamın yaradıcılığının erkən dövrlərindən başlayaraq, bu günümüzə kimi olan zəngin yaradıcılıq irsinin, arxiv materiallarının, qəzet və jurnal məqalələrinin, müəllifi olduğu kitabların öyrənilməsi, eyni zamanda şəxsi arxiv materialları və özü ilə aparılmış çox saylı müsahibələr təşkil edir.

Tədqiqatın predmetini isə rəssamın yaradıcılığı, əsərlərinin məzmun, üslub, forma və bədii dəst-xətt göstəriciləri təşkil edir. Bu tədqiqat işində rəssamın yaradıcılığının xronoloji ardıcıllıqla izlənilərək, tədqiq və təhlil edilməsi əsas predmet kimi götürülmüşdür.

**Tədqiqatın metodoloji əsasları.**Tədqiqatın metodologiyası mövzunun seçilməsi və onun XX əsr Azərbaycan təsviri sənəti kontekstində araşdırılması zərurəti ilə şərtləndirilir. Onun əsasını Əli Verdiyevin çoxşaxəli yaradıcılığında yer alan mövzuların bədii xüsusiyyətlərinin üzə çıxarılması və ayrı-ayrı əsərlərin təhlili təşkil edir.

Tədqiqat işində nəzərdən keçirilən problemlərin təhlilində milli və ümumbəşəri dəyərlərdən, sənətşünaslığın elmi-nəzəri qənaətlərindən faydalanılmışdır. Sistemli tarixi-müqayisəli metod Əli Verdiyevin və onun dövrünün aparıcı rəssamlarının yaradıcılığını Azərbaycan təsviri sənətində dəzgah rəngkarlığının inkişafı problemləri ilə əlaqələndirməyə imkan verir. Müqayisəli təhlil metodu rəngkarlıq sahəsində fəaliyyət göstərən rəssamların yaradıcılığını qarşılaşdırılmağa, tətbiq etdikləri çeşidli bədii-texniki vasitələrlə müxtəlif mövzularda yaratdıqları əsərlərin səciyyəvi xüsusiyyətlərini üzə çıxarmağa kömək edir.

Yuxarıda deyilənlərlə yanaşı tədqiqatın əsas metodu kimi mədəni-tarixi, bədii-tarixi və müqayisəli-tarixi metodlar, sənətşünaslığın elmi-nəzəri müddəaları, o cümlədən ədəbi, qəzet və arxiv materiallarının kompleks şərhinə, sistemləşdirməsinə və öyrənilməsinə əsaslanır. Belə ki, tədqiqata rəssam haqqında yazılmış bir çox məqalə və əsərlər, həmçinin Əli Verdiyevin özünün müəllifi olduğu kitablar və rəssamın şəxsi arxivi də cəlb olunub. Eyni zamanda rəssamın öz dilindən söylədiyi hadisələrin və yaradıcılığı haqqında dediyi şərhlərinin də tədqiqatda yer alması

təqdirəlayiq göstəricidir.

Eyni zamanda bu metod sənətşünaslıq təhlili çərçivəsində Əli Verdiyevlə yanaşı, digər rəssamlarımızın da müqayisəyə cəlb edilmiş əsərlərinin obrazlı və üslub həllinin səciyyəsini üzə çıxarmağa imkan verir. Araşdırılan əsərlərin ikonoqrafik və ikonoloji, eləcə də semantik təhlili onların obrazlı həllinin bədii-estetik səviyyəsini aşkarlamağa şərait yaradır.

Tədqiqatın metodologiyası kompleks şəkildə sənətşünaslıq tədqiqatının prinsiplərinə əsaslanır. Dissertasiyada materialların xronoloji prinsip əsasında elmi təhlili aparılmışdır.

**Tədqiqatın sərhədləri.** Tədqiqatın xronoloji sərhədləri XX əsrin 60-cı illərindən bu günümüzə qədər bir dövrü əhatə edir. Əli Verdiyevin təhsil illəri, yaradıcılığının formalaşması və inkişafı məhz bu dövrləri əhatə edir.

Tədqiqat zamanı 1960-cı illər üçün xarakterik olan Azərbaycan rəngkarlığının bədii xüsusiyyətləri müəyyən qədər araşdırılmış və bu haqda lazımi qeydlər dissertasiyada qısa şəkildə öz əksini tapmışdır.

Əli Verdiyevin Türkiyədə yaşayıb-fəaliyyət göstərdiyi dövr də geniş şəkildə tədqiq olunaraq dissertasiyaya daxil edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada Azərbaycan sənətşünaslığı tarixində ilk dəfə olaraq Əməkdar rəssam, professor Əli Verdiyevin həyat və yaradıcılığı sistemli şəkildə tədqiq və təhlil edilmişdir. Rəssamın əsərləri öyrənilərək təhlil olunmuş, onun yaradıcılığının əsas üslub xüsusiyyətləri, rəssamın dövrün tələblərinə uyğun mövzulara və tarixi mövzulara bədii yanaşması öz əksini tapmışdır. Eyni zamanda tədqiqata rəssamın ictimai və pedaqoji fəaliyyəti, bununla yanaşı geniş ədəbiyyat və zəngin illüstrativ materialın cəlb olunması, dissertasiya işinin elmi dəyərini xeyli dərəcədə artırmışdır.

Əli Verdiyev yaradıcılığının bu zamana qədər xüsusi tədqiq olmadığını nəzərə alsaq, dissertasiya işinin gedişi zamanı üzə çıxarılan bir çox faktlar öz yeniliyi ilə diqqəti cəlb edir. Tədqiqatın elmi yeniliyi aşağıdakı müddəalarda öz əksini tapmışdır.

- Əli Verdiyevin həyat və yaradıcılığı, rəssam kimi formalaşmasına təsir göstərmiş ictimai-mədəni şərait geniş şəkildə tədqiq edilmişdir;
- Əli Verdiyev yaradıcılığı xronoloji tədqiq edilərək sistemləşdirilmiş, yaradıcılıq yolu olduqca əhatəli araşdırılmış, ümumiləşdirmələr və

nəticələr çıxarılmışdır;

- milli sənətşünaslıq tariximizdə ilk dəfə olaraq rəssamın son dövr əsərləri təhlil edilərək yaradıcılığının geniş bədii imkanları müəyyən edilmişdir;

- ilk dəfə olaraq Əli Verdiyev yaradıcılığını səciyyələndirən bədii-texniki xüsusiyyətlərin özünəməxsusluğu aydın şəkildə müəyyənləşdirilmişdir;

- arxiv sənədlərinə istinadən dissertasiyada əksini tapmış bütün əsərlərin yaranma tarixi və bədii-texniki göstəriciləri ilk dəfə olaraq dürüst şəkildə təqdim edilmişdir;

- rəssamın əsərlərinin janr, üslub və icra texnikasına görə təsnifatı aparılaraq, tarixi, mənzərə və məişət, eləcə də portret yaradıcılığı əhatəli şəkildə tədqiq və təhlil edilmişdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiya Azərbaycan sənətşünaslığında ilk dəfə olaraq Əli Verdiyev yaradıcılığını monoqrafik şəkildə öyrənərək, özündə geniş nəzəri, tarixi və illüstrativ material toplayan tədqiqat işi kimi nəzəri və təcrübi əhəmiyyətə malikdir. Dissertasiya Əli Verdiyev yaradıcılığı haqqında geniş əhatəli mənbədir.

Bu dissertasiya işindən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında, eyni zamanda incəsənət profilli ali və orta məktəblərdə müvafiq fənnlərin tədrisində istifadə etmək olar. Eyni zamanda dissertasiya işi təsviri sənətə maraq göstərən geniş oxucu kütləsi üçün də etibarlı mənbə hesab oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmiş və kafedranın iclasında müzakirə olunmuşdur. Tədqiqatın əsas məzmunu, elmi mahiyyəti və əldə olunan nəticələr müxtəlif səviyyəli elmi konfranslarda dinlənilmiş, eləcə də müəllifin çap olunmuş bir sıra elmi məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, yeddi yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu 125 səhifədə öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## Tədqiqatın məzmunu

Girişdə mövzunun aktuallığı, məqsəd və vəzifələri, onun işlənmə səviyyəsi, eləcə də işin elmi yeniliyi, praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqda məlumat verilir.

**"Müasir Azərbaycan rəngkarlığında Əli Verdiyev yaradıcılığının yeri"** adlanan **birinci fəsil**, rəssamın erkən dövrlər yaradıcılığına həsr olunmuşdur. Bu fəsil üç yarımfəsildən ibarətdir.

**Birinci yarımfəsil – "Əli Verdiyevin yaradıcılığı "sərt üslub" estetikası kontekstində"** adlanır. Burada Əli Verdiyevin həyat və yaradıcılığı, rəssam kimi formalaşmasına təsir göstərmiş ictimai-mədəni şərait geniş şəkildə tədqiq edilmiş, rəssamın yaradıcılığı "sərt üslub" estetikası kontekstində araşdırılmışdır.

Qeyd edək ki, 1960-70-ci illərdə ilk dəfə olaraq ənənəvi şüurun əsas prinsipləri dəzgah rəngkarlığına peşəkar dərəcədə daxil olur. Əsasında təbiət və insan məişətinin harmoniyası duran mənəvi-fəlsəfi dünyagörüşü ənənəvi şüurun tam məğzini ifadə edə bilir.

Sosial tiplərə və milli xarakterlərə müraciət edən gənc rəssamlar yeni məzmunlu əsərlər yaradırdılar. Bu illərdə rəngkarlıq əsasən kənd və şəhər zəhmətkeşlərinin həyatına lirik yanaşma, gözəllik və mənəvi yüksəlişin qeyd edilməsi ilə səciyyələnir. Janrlı süjetlərdə və kənd həyatı ilə bağlı olan motivlərə əsasən sosialist quruluşu hesabına əldə olunduğu düşünülən "səadət" anlamı yüklənirdi. Aydın məsələdir ki, bu əsərlərdə real gerçəkliyin dramatik və fərdi tərəfləri əks olunmurdu.

Milli şüur üzərində qurulan diktatorluğun get-gedə zəifləməsi rəssamların fərdi yaradıcılıq prinsiplərinin və özünəməxsusluğunun formalaşmasına təkan verir. Nikbin ruhlu xalq yaradıcılığı ənənələri o dövrün ictimai quruluşuna və ideoloji-siyasi prinsiplərinə tam uyğun görünürdü.

Əli Verdiyev yaşadığı dövrün keşməkeşli yollarından bəhs edən tablolar işləyir, mövzu qıtlığını hiss etmir. Onun həmin dövrdə özünü müxtəlif janrlarda sınaması heç şübhəsiz bilavasitə fərdi yaradıcı-bədii potensialını nümayiş etdirmək istəyi ilə bağlı idi.

Əslində gənc rəssamın dünyaya fərqli baxmaq və gördüklərini özünəməxsus tərzdə dərk etmək istəyi də birmənalı şəkildə qəbulolunandır.

Belə ki, o, sonralar yaradacağı əsərlərində yaşlı həmkarlarından fərqli olaraq, sərt görüm tərzinin qabarıqlığına bir qədər də lirik-romantik ruh qatmaqla düşüncələrini bədiiləşdirməyə çalışırdı. Gerçəkliyə baxışlarının həm başqaları tərəfindən təqdiri, həm də özünün tutduğu yolun düzgünlüyünə inamı bütün sonrakı yaradıcılığında onun bu bədii tutumda yeni-yeni əsərlərin yaranmasını şərtləndirdi.

Keçmişimizlə bu günümüzü hər zaman sintez şəklində tamaşaçıya təqdim edən rəssam qədim xalq sənətimizdən geniş bəhrələnmişdir. Xalq sənətinin əsası olan dekorativlik, xətlərin və paralellərin bir kompozisiya ətrafında birləşməsi, dəqiq ölçülər, bədii materialların ifadəliliyi, rəng qammasının intensivliyini öz yaradıcılığında cəmləyən rəssam hər zaman milli köklərinə olan bağlılığına sadiq qalmışdır.

İllər ötdükcə yeni-yeni bədii ifadə üsullarına yiyələnən Əli Verdiyev rəsm texnikasını və rəngləri özünə tabe etmə qabiliyyəti diqqətimizdən yayınmır. Qeyd edək ki, rənglər yalnız göz oxşayan vasitə deyil, eyni zamanda kəsərli söz kimi güclü bədii təsirə malikdir. İstər həyatın bütün məqamlarını, istər insan duyğularını, sevinci, kədəri rənglərlə ifadə etmək bacarığına malik olan rəssamlar rənglər vasitəsilə qəlbimizə, ruhumuza yol tapır, yaddaşlarımızda sevincli və bəzən də kədərli izlər buraxırlar.

Rəssam incəsənətdə hər zaman öz yolu ilə getmiş, heç bir sənətkarı təkrarlamamış, yaradıcılığı boyu fərqli və fərdi dəst-xəttini formalaşdırmışdır. Əli Verdiyevin yaradıcılıq dəst-xəttindəki təkrarolunmazlıq və özünəməxsusluq 1980-ci illərin sonundan etibarən daha da güclənərək bir çox sənət incilərinin meydana çıxmasına səbəb olur. Bu zaman kəsiyində yaratmış olduğu əsərlər onun yaradıcılığında yalnız monumentallığa deyil, eyni zamanda milli ruha və rəng ahəngdarlığına olan marağının daha da gücləndiyini təsdiqləyir.

Beləliklə, Əli Verdiyevin erkən dövr yaradıcılığı, yəni 1960-cı illərin sonu və 1980-ci illər onun realistik sənətin metod və sirrlərini dərindən mənimsəmiş, əsərlərində janr və mövzu müxtəlifliyinə nail olan, fərdi üslub xüsusiyyətlərini formalaşdırmağa çalışan fəal yaradıcılıq axtarışları ilə səciyyələnir.

Əli Verdiyevin yaradıcılığında XX əsrin II yarısı milli rəngkarlığımıza xas olan səciyyəvi xüsusiyyətlər öz parlaq ifadəsini tapmış və dövrün aparıcı mövzuları əks olunmuşdur. Onun üstünlük verdiyi janr və möv-

zular, özünəməxsus ifadə manerası və üslubu ilə seçilir.

Rəssamın əvvəlki realizm tutumlu kompozisiyalarından fərqli olaraq, sonrakı illərdə daha da yeniləşən ifadə tərzində mənzərəyə özünəməxsus bədii münasibət açıq-aydın seçilir. Belə ki, 60-cı illəri əhatə edən mənzərələrdə bu janr üçün önəmli sayılan ovqatdaşıyıcılığın cəlbedici şərhi ilə qarşılaşırıq.

Həm də "Sərt üslub"un ruhu duyulan bu əsərlərdə bədii şərhin təəssüratdan obrazlılığa qədər yüksəlməsində plener ovqatı duyulsa da, o, bunu impressionistlər kimi yaxı bölgüləri ilə əldə etməyib, əksinə, qalın – pastoz yaxı qatı ilə gördüklərinin ifadəsinə çalışıb. Burada üst-üstə "qalaqlanan" rənglər elə mürəkkəb və dinamik nisbətlə qarışdırılıb ki, səthin ümumi yük daşıyıcılığındakı təravətlilik qalmaqla, gərginlik, xarakter və təsir gücü fasiləsiz dəyişməkdədir. Bu cür bədii şərhdə realizm estetikasına özünəməxsus əlavələrlə yanaşı, məkanda mövcud olanların stilizəsinə də rast gəlinir.

Əli Verdiyevin bədii yaradıcılığı ilə yanaşı onun elmi fəaliyyətini də qeyd etmək yerinə düşər. O bir neçə metodik vəsaitlərin də müəllifidir: "Boyakarlıqda rənglərin təsir qüvvəsi" (1986), "Rəssam - pedaqoq" (1986), "Dəzgah rəngkarlığı" (1988), "Записная книга" (2012). Bu kitablar yetişməkdə olan gənc rəssam nəsli üçün çox qiymətli bilik mənbəyidir və bu kitablarda toplanmış məlumatlar yüksək elmi dəyərə malikdir.

**"Rəssamın süjetli kompozisiyalarının bədii xüsusiyyətləri"** adlanan **2-ci yarımfəsildə -** rəssamın süjetli kompozisiyalarının bədii xüsusiyyətləri tədqiq olunur.

Belə ki, yaradıcılığının erkən mərhələsində "sərt üslub"a müraciət edən Əli Verdiyev bu səpkidə bədii-estetik dəyərlərinə görə fərqlənən müxtəlif əsərlər yaratmışdır. Lakin onun bu üslubda işləyən digər rəssamlardan fərqi ondan ibarət idi ki, əgər başqaları adi həyatdan götürülmüş süjetlərdə reallığı sərt tərzdə təsvir edirdilərsə, Əli Verdiyevdə bu bir qədər özünəməxsus – lirik-romantik tərzdə öz həllini tapmışdır.

Əli Verdiyevin müxtəlif mövzu və janrlara müraciət etməsi məhz onun fərdi yaradıcılıq potensialını nümayiş etdirmək istəyi ilə bağlıdır. Daim yaradıcılıq axtarışında olan rəssamın erkən dövrü üçün onun bir-birindən maraqlı kompozisiya quruluşuna malik olan süjetli kompozisiyaları xüsusilə diqqət çəkir. Bu mənada rəssamın "Savadsızlığın ləğvi"

(1969), “Gənclik” (1970), “Qızıl toy” (1971),“Cənnət və Cəhənnəmə gedən yol” (1973), “Əmək qələbəsi” (1977), “Xatirələr” (1980),“Qocalıq” (1980), “Pəncərədəki işıq” (1984), “Qız it ilə” (1991),“Həyəcanlı gün” (1995), “Dəniz gəzintisi” (1997), “Qədim ev” (1998), “Folklor” (1998), “Telefon” (2000), “Kıranardi” (2002), “Azıx mağarası” (2011) kimi süjetli kompozisiyalarının adlarını çəkmək olar.

Əli Verdiyevin süjetli tabloları klassik tələblər çərçivəsində olsa da müəyyən mənada rəssamın dəst-xəttini səciyyələndirən əlamətlərlə zəngindir. Əli Verdiyev bu cür tablolarında yalnız hadisələri realizm prinsipi əsasında deyil, eyni zamanda bədii görüntüyə gətirdiyi hadisələrlə öz duyğularını da ifadə edə bilmişdir. Hər bir rəssamın yaradıcılığında onun tanıtım nişanı olan bir əsəri mütləq mənada mövcuddur. Bu mənada Əli Verdiyevin də Azərbaycan rəngkarlığında yüksək bədii zövqə malik olduğunu nümayiş etdirən “Savadsızlığın ləğvi” (1969) tablosunu qeyd etmək olar.

Rəssamın erkən dövr yaradıcılığının ən dəyərli əsərlərindən hesab olunan bu çoxfiqurlu kompozisiyanın mövzusu olduqca maraqlı, təzadları ilə diqqətçəkən bir dövrə həsr olunmuşdur. Belə ki, tabloda Azərbaycan Sovet hakimiyyətinin qurulmasının ilk illərində qadınlarımızın mənəvi təkamülünün parlaq obrazlarından biri yaradılmışdır. Kompozisiyanın bütövlüklə qadın fiqurları ilə əhatələnməsi bilavasitə ölkənin hər yerində savadsızlığın ləğvinə yönəldilmiş maarifləndirmə işlərinə işarə edir. Başı açıq müəllim obrazı isə o dövr üçün əsl maarifçi cəsarətli gənc nəslin yetişdiyindən xəbər verir. Obrazların hər birinin önə baxması işıqlı gələcəyə olan inamın göstəricisidir. Bu orijinal kompozisiyalı, çoxfiqurlu, müxtəlif insan xarakteri ilə zəngin olan tablonu haqlı olaraq təsviri sənət həvəskarları yüksək qiymətləndiriblər. “Bu məziyyətlərinə görədir ki, Əli Verdiyevin ilk tematik əsəri ölkəmizdə, eləcə də xaricdə sovet incəsənəti sərgilərində nümayiş etdirildi və məhz bu əsərə görə gənc rəssama Azərbaycan komsomolunun mükafatı verildi”[1].

Əli Verdiyevin yaradıcılığının özünəməxsus cəhətlərindən biri də rəssamın janr və mövzu müxtəlifliyi ilə seçilən əsərləri format baxımından da cəlbediciliyi ilə fərqlənir. Belə ki, rəssamın təsvir etdiyi hər hansı bir süjet, mənzərə və ya portret sanki əks olunduğu tablo üçün əvvəldən

---

[1] Azərbaycan Lenin komsomolu mükafatı laureatı. “Gənclik” qəz. Bakı, 1980.

seçilmişdir. Bəzən rəssamlar iri miqyaslı hadisəni kiçik ölçülü kətana köçürdükdə əsər baxılmır. Bu isə əsərin bədii-estetik dəyəri ilə yanaşı onun bədii-texniki xüsusiyyətlərini də sıradan çıxardır.

Lakin Əli Verdiyevin əsərlərini izlədikcə onun yüksək bədii məziyyətlərini aydın sezmək olur. Eyni zamanda onun əsərlərində vahid kompozisiya quruluşu ilə yanaşı, bir tabloda bir neçə fraqmentar kompozisiyanın da mövcudluğunu görürük. Bir neçə hadisənin vahid kompozisiyada ümumi baxılmasına nail olmaq təbii ki, hər bir rəssamdan yüksək sənətkarlıq bacarığı tələb edir. Əli Verdiyev isə bu cür bədii həllin öhdəsindən layiqincə gəldiyini dəfələrlə nümayiş etdirmiş rəssamlardandır.

Əli Verdiyevin süjetli tabloları həm mövzusu, həm də mövzunun bədii şərhi baxımından maraq doğururlar.Bu cür əsərlərdə rəssamın "sərt üslub"un imkanlarından bacarıqla istifadə etməsinə şahidlik etmək mümkündür. Əksər süjetli kompozisiyaları özünün ekspressiv və dramatik məzmun tutumu ilə də yadda qalır.

**"Əli Verdiyevin yaradıcılığında Türkiyə dövrü"** adlanan **I fəslin 3-cü yarımfəslində** Əməkdar rəssamın 15 il müddətində Türkiyədəki yaradıcı və pedoqoji fəaliyyəti geniş şəkildə araşdırılmışdır.

1990-cı illərin ortalarında Əli Verdiyevin yaradıcılığında yeni bədii-estetik axtarışlarla fərqlənən mərhələ başlayır. Ciddi dəyişikliklər 1990-cı illərin əvvəllərində sovet məkanında baş verən siyasi-ictimai, iqtidasi və sosial-mədəni proseslər ilə bağlı olaraq, rəssamın həm bədii, həm də pedaqoji fəaliyyətində öz əksini tapmışdır. Azərbaycanın müstəqilliyinin bərpası siyasi və ideoloji baryerləri qıraraq rəssamlarımızın fəaliyyətinin coğrafi arealının genişlənməsinə güclü təsir göstərdi və onların yaradıcı potensialını əhəmiyyətli dərəcədə stimullaşdırdı.

Əli Verdiyevin yaradıcılıq kontekstində Türkiyə mövzusu xüsusi və unikal yer tutur. Onun bu aspektdə müraciəti hələ çox əvvəl, Türkiyə səfərindən öncə baş tutmuşdur. İlk dəfə mövzu 1983-cü ildə, öz dövrünün əhəmiyyətli əsəri olan və xüsusilə artıq növbəti, 1984-cü ildə dahi şair və dramaturqun doğma Naxçıvanında açılacaq ev-muzeyində ekspozisiya üçün hazırlanan "Hüseyn Cavid. Təbriz. İstanbul. Təhsil illəri" (1983) kompozisiyasında səslənmişdir. Qeyd olunmalıdır ki, göstərilən dövrdə Cavidin obrazı bədii interpretasiyalar üçün yeni impulslar əldə

edir[2].

Türkiyə, və onun kontekstində İstanbul mövzusuna ciddi və səmərəli, məhsuldar maraq Verdiyevdə 1990-cı illərin ortalarında yaranır. 1995-ci ildə rəssam şəxsi şəkildə İstanbula dəvət olunur, və bir neçə il ərzində burada fərdi tərzdə çalışaraq silsilə əsərlər yaradır. Yaradıcılığının Türkiyə dövrünün ilk mərhələsiniİstanbulda keçirən Verdiyev, qeyd olunan zaman ərzində əsərlərinin çox hissəsini məhz bu şəhərə həsr edir.

XX əsrin sonu-XXI əsrin əvvəlindəki vəziyyəti müəyyənləşdirən qloballaşma və sosial-mədəni paradiqmaların dəyişməsi şəraitində milli rəssamlıq nümayindələrimizin "başqa bir" şəhər mühitinin bədii tərzdə ifadə olunmasına dair təsəvvürləri əhəmiyyətli dərəcədə dəyişmişdir. Bu vəziyyətdə geostrateji və regional fərqlilik, etno-mədəni prioritetlər, kommersiya aspekti müəyyənedici rol oynayır.

Əli Verdiyev yeni mühitdə fərqli bədii impulslardan ilhamlanaraq, təsvir konseptində İstanbulun obrazını bir neçə aspektdə işləyir. Rəssamın qeydlərinə əsasən o burada iki yüzə yaxın şəhər mənzərəsi yaratmışdır. Verdiyevin Türk sislsiləsində İstanbul mövzusu tədricən, ardıcıl tərzdə inkişaf edərək ərsəyə gəlir. Rəssam üçün İstanbul dərin qatlarında inanılmaz mədəniyyətlərin və talelərin qovuşduğu əbədi şəhər obrazının indikatoru qismində çıxış edir. Türkiyədə üç amil mənim marağıma daim səbəb oldu: insanlar, coğrafiya və şübhəsiz, dünyanın paytaxtı – İstanbul...

Fotoqrafik üslubun formalaşması Əli Verdiyev yaradıcılığının türkiyə dövrü üçün səciyyəvi xüsüsiyyətdir. Rəssamın İstanbul mövzusunda işlədiyi əsərlərdə bu bədii ifa nisbətən yeni olsa da, sonrakı silsilələrdə, xüsüsən də Atatürk obrazının işlənməsində bu üslubaydın şəkildə nəzərə çarpır.

1990-cı illərin əvvəllərindən başlayaraq iri formatlı əsərlərin koloristik həlli sahəsində dəyişikliklər daha aydın görünməyə başladı. Təsviri sahə ilə aydın mütənasiblik təşkil edən formaların sarsılmazlığı və qüdrəti, rənglərin sıxlığı və lakonikliyi işıq və kölgə modelləşdirməsində xüsusi dinamika əldə edir. Rəssam boyaların korpus xüsusiyyətlərini, örtücü qabiliyyətlərini sanki yenidən dəyərləndirir, texniki baxımdan

---

[2] Axundov B. Cavid obrazı təsviri və tətbiqi sənətimizdə. "525-ci qəzet" qəz., 2010, 21 aprel. s.7

işıq-kölgənin verilməsində istifadə edir.

Türkiyədə olduğu bütün müddət ərzində yaradılan və rəssamın bədii axtarışlarının çətin yolunu əks etdirən qadın obrazları seriyası böyük diqqətə səbəb olur. Qadın obrazlarında dekorativ formalara, ənənəviliyə maraq yaranır, kompozisiyaya ornament motivləri, zinət əşyaları, simvolik aksessuarlar daxil edilir. Nəticədə obrazlar simvolik səslənir.

2010-cu ildə Azərbaycana qayıdan rəssamın yaradıcılığında Türkiyədə əldə etdiyi yeni bədii nailiyyətlər və fərdi təcrübə yeni əsərlərin yaranmasına təkan vermişdir. Bu əsasən portret janrında öz əskini tapmışdır.

**"Əli Verdiyevin yaradıcılığında mövzu və janr rənarəngliyi"**adlandırılmış və iki yarımfəsildən ibarət olan **II fəsildə** rəssamın yaradıcılığında böyük əhəmiyyətə malik olan tarixi janr, eyni zamanda mənzərə və məişət janrlarında yaratmış olduğu əsərlər bir araya gətirilərək, əsaslı təhlil edilmişdir.

Bu fəslin **birinci** – **"Rəssamın yaradıcılığında tarixi mövzuların əksi"** adlanan **yarımfəslində** sənətkarın tarixi mövzulu əsrələri geniş şəkildə tədqiq olunaraq sistemləşdirilmişdir.

Azərbaycan təsviri sənətində tarixi mövzuya müraciət edənlərin arasında respublikanın Əməkdar rəssamı, professor Əli Verdiyevin də müstəsna rolu vardır.

Əli Verdiyev tarixi mövzuda bu gün də bütün mənalarda bədii dəyərini itirməyən və olduqca rəngarəng əsərlər yaratmışdır. Rəssamın "Təslim" ("Qarşımızda") (1965), "Məntəqə - 42" (1978), "V.İ.Lenin və N.Nərimanov" (1979), "Dünyaya sülh" (1984), "Döyüş" (1984), "22 iyun 1941-ci il" (1985), "Qələbə. 1945-ci il" (1985), "Mannalılar" (1986), "Babək üsyanı" (1987), "Rahib Məmmədovun qəhrəmanlığı" (1988), "Qırmızı ordunun gəlişi" ("Başlanğıc") (1989), "Atatürk hərb yoldaşları ilə" (1996) və "Atatürk Kayseridə" (1998) kimi əsərləri bu qəbildəndir.

Bildiyimiz kimi, tarixi mövzuda əsər yaratmaq hər bir rəssamdan daha çox yaradıcı səy və intellektual hazırlıq tələb edir. Məhz bu səbəbdəndir ki, Azərbaycan təsviri sənətində tarixi janrla baş-başa qalmağın ağır yükünü daşımağa hazır olan rəssamlarımız demək olar ki, olduqca az saydadır. Belə ki, bu prosesdə az qala tarixçi alimin müəyyən bir tarixi hadisə barəsində əldə etdiyi bilgilərdən xəbərdar olmaq rəssamdan

zəhmət və davamlı axtarışlar tələb edir. Təbii ki, bu ağır elmi-yaradıcı və mənəvi-psixoloji yükün altına girməyə isə hər bir kəs razı olmur. Lakin 1968-ci ildə təşkil olunmuş "Sülhün keşiyində" adlı respublika yubiley rəssamlıq sərgisində bir çox görkəmli rəssamlarımızla yanaşı Əli Verdiyevin də uğurla iştirak etməsi onun tarixi bilgilərə nə dərəcədə malik olmasının əyani göstəricisidir. "1979-cu ildə Əli Verdiyev ilk dəfə olaraq tarixi-inqilabi mövzuya müraciət etdi və "V.İ.Lenin və N.Nərimanov" monumental tablosunu yaratdı. Bu tablo və bundan əvvəl yaratdığı janr əsərləri hamıya sübut etdi ki, Əli Verdiyevin şəxsində Azərbaycan təsviri sənətində öz fəaliyyəti ilə seçilən istedadlı bir rəngkar səmərəli yaradıcılıq fəaliyyəti göstərir"[3].

Rəssamın bədii məziyyətlərinə görə istənilən tamaşaçını duyğulandıra bilən və başdan-ayağa tarixə bələnmiş əsərlərinin ən diqqətçəkən xüsusiyyəti onlarda doğma vətənə və Azərbaycan xalqına nəhayətsiz sevginin mövcudluğudur. Bunu da qeyd edək ki, Əli Verdiyevə qədər milli təsviri və tətbiqi sənət tariximizdə özündə vətən və millət sevgisini yaşadan əsərlər az deyil. Ancaq Əli Verdiyevin yaradıcılığında öz əksini tapmış tarixi mövzulu əsərlər özünəməxsus bədii həlli ilə seçilir. Rəssamın özündə tarixi yük daşıyan əsərlərin demək olar ki, ən xarakterik cəhəti onların Azərbaycan – türk xalqının qəhrəmanlıq keçmişinə, bənzərsiz mənəvi dəyərlərinə həsr olunmasıdır.

Bu fəslin **2-ci yarımfəsli "Əli Verdiyev yaradıcılığında mənzərə və məişət janrı"** adlanır. Sözügedən yarımfəsildə rəssamın tez-tez müraciət etdiyi mənzərə və məişət janrında yaradılmış əsərləri haqqında geniş məlumatlar verilir və eyni zamanda bu janrlarda yaratmış olduğu dəyərli əsərləri təhlil olunur.

Əli Verdiyevin də yaradıcılığına nəzər yetirdikdə digər janrlar kimi mənzərə janrının da özünəməxsusluğu ilə seçilməsi adi gözlə belə görünəndir. Uzun illər boyu bu janrı yaşantılarının bədiiləşdirilməsi üçün ən yaxşı ifadə forması hesab edən rəssam, gerçəkliyə münasibətində ruhən dəyişildiyi kimi, onların təqdimatında da bir-neçə dəfə fərqli bədii-texniki məziyyətlər nümayiş etdirməyə nail olmuşdur. Bir çox hallarda o, qarşısına qoyduğu yaradıcı məqsəddən asılı olaraq eyni dövrdə realizm və mücərrəd, gah da romantik ovqatlı mənzərələr yaratmışdır.

---

[3] Nəcəfov M. Azərbaycan rəngkarlığı bu gün. Bakı, 1985. s.36

Əli Verdiyevin rəngkarlıq əsərləri hər şeydən əvvəl janr və mövzu müxtəlifliyi ilə diqqəti cəlb edir. Onun çoxşaxəli yaradıcılıq dünyasında rəngarəng tablolara və portretlərə, mənzərələrə və etüdlərə rast gəlirik. Rəssamın bədii motivləri arasında bir qayda olaraq insan və mənzərə motivləri daha çox üstünlük təşkil edir. Rəssam öz qəhrəmanlarının həyatına nüfuz edir, onların daxili aləmində və zahiri görkəmində olan xarakterik cizgiləri üzə çıxarır, bunları qabarıq şəkildə ifadə etməyə səy göstərir.

Rəssamın 1960-cı illərdən başlayaraq zaman-zaman yerinə yetirdiyi və xüsusilə də xarici ölkələrin memarlıq abidələrinə, təbiət mənzərələrinə həsr olunmuş rəngkarlıq və qrafik lövhələri say etibarilə tarixi mövzuda yaratdığı əsərlərdən üstünlüyü ilə seçilir. Bu mənada rəssamın "Leninqrad. Qış kanalı" (1961), "Leninqrad. Aniçkov körpüsü" (1961), "Dağıstan" (1981), "Aralıq dənizi" (1983), "Neapol" (1983), "Romada avtomobil dayanacağı" (1983), "İspaniya" (1991), "Kapadokiya" (1996), "Köhnə İstanbul" (1998), "Kipr" (2002), "Türk kəndi" (2005), "Berlin" (2006), eləcə də doğma yurdumuza həsr olunmuş "Abşeron bağı" (1966), "Çöldə külək" (1968), "Neft suvarma estakadası" (1968), "Köhnə həyət" (1969), "Dağlar" (1977), "Dağlar" (1981), "Şıxov yolu" (1993), "Mənzərə. Monotipiya" (1994), "Kənddə axşam" (1994), "Qürub" (1995), "Köhnə ev" (2009), "Asfalt yol" (2010), "Mənzərə" (2011) əsərləri bu qəbildən olan zəngin bədii dəyərləri özündə yaşadan maraqlı tablolardır.

Qeyd edək ki, rəssamın mənzərə yaradıcılığının ilkin mərhələsini xüsusilə xarici ölkələrin memarlıq və təbiətinə həsr olunmuş əsərlər təşkil edir. Bütün yaradıcılığı boyu yağlı boya ilə işləyən rəssam eyni zamanda ağ-qara rənglərlə də ifadə etdiyi görüntülərə bədii tutum verməklə, onun daşıdığı bədii-estetik məziyyətləri tamaşaçılara çatdıra bilmişdir.

Vaxt axarında onun məşhur "sərt üslub"dan qaynaqlanaraq lirik-romantik biçim alan özünəməxsus dəst-xətti özünün bədii imkanlarını mənzərə janrında çəkdiyi əsərlərdə daha qabarıq göstərib. Rəssamın müşahidələrinə real-analitik yanaşması, təzadlı ovqat yarada biləcək bədii ümumiləşdirmələr aparması ona neçə-neçə ruhları duyğulandıran mənzərələr yaratmağa imkan vermişdir. Belə tablolarda fərdi rəssam meyarı ilə təqdim olunan həyat həqiqətləri kifayət qədər lakonik dillə təqdim olunsa da, tamaşaçını duyğulandıracaq forma-biçimdə və rəng

həllindədir.

Azərbaycan rəssamlığında mənzərənin təsir hüdudlarını yeni bədii məziyyətlərlə zənginləşdirən Əli Verdiyevin yaratdıqlarının "ovqat mənzərəsi"nə çevrilməsinə nail olmasını yəqin ki, onun bu janrın təşəkkülünə əvəzsiz töhfəsi saymaq olar. Rəssamda bu cür mənzərələr yaratmaq potensialı güclüdür. Onlarda çox vaxt perspektivaya riayət olunması, planların məqsədyönlü şəkildə verilməsi, rənglərin yaradıcı niyyətə uyğunlaşdırılması ilk növbədə görüntünün səmimiliyinin və ovqat daşıyıcılığının ülviliyinin əldə olunmasına yönəli yaradıcılıq cəsarətidir.

Nəticə etibarilə qeyd edək ki, Azərbaycan təsviri sənətində ötən yüzilliyin başlanğıcından müstəqil şəkildə yaranan mənzərə janrının son bir qərinəlik inkişafının mənəvi yükünü daşıyanların sırasında Əli Verdiyev önəmli yer tutur. Rəssamın yaradıcılığında davamlı yer tutan mənzərə janrında ərsəyə gətirilən əsərlər sayca çox olmaqla yanaşı, onların hər biri bədii məziyyətlərinə görə özünəməxsusdur. Əgər onun ilk işlərində mənzərənin reallığının daha qabarıq göstərilməsinə üstünlük verilibsə, sonrakı dövrlərdə isə təbiətin ümumiləşdirilmiş obrazı lirik-poetik ovqatda, bir qədər də fəlsəfi duyğulara bələnmiş tutumda təqdim olunubdur.

Rəssamın yaradıcılığında yer alan məişət janrlı əsərlərinin də özünəməxsus bədii məziyyətləri vardır. Əli Verdiyevin yaradıcılığında məişət janrının digər janrlara nisbətən az olmasına rəğmən, bu janrda yaradılan əsərlər bədii-məziyyətlərinə görə heç də zəif baxılmır, əksinə öz tamaşaçılarına daha maraqlı və yeni forma-biçimdə təqdim olunur. Elə bu yeni özünüifadəni fərdi yaradıcılıq simasının təravətli qalmağına yönəltməyi bacarmağının nəticəsidir ki, onun ərsəyə gətirdiyi məişət tabloları özünəməxsus bədii tutuma malik olduğunu sərgiləməkdədir.

Əli Verdiyevin yaradıcılığı boyu "sərt üslub"dan qaynaqlanan lirik-romantik ovqatlı məişət janrında yaratdığı əsərlər içərisində məzmun baxımından bir-birinə yaxın olan əsərləri də mövcuddur. "İstirahət" (1989) və "Yatmış Aylin" (2003), "Restoran" (2003), "Park" (2004), əsərləri bu mənada yaddaqalan maraqlı nümunələrdir.

Rəssamın adi məişət həyatını əsərlərinin əsas məna-məzmun daşıyıcısına çevirməsi də ilk növbədə onun incə müşahidə qabiliyyətinə malik olmasının görüntüsüdür.

Ümumiyyətlə, Əli Verdiyevin əsərlərinin bədii-estetik və ya bədii-

texniki həllində məhz milli realizmənənələrinə söykənməsini nəzərə almalı olsaq, o zaman rəssamın yaradıcılığının qədim bədii və milli mənəvi dəyərlərin yeni və özünəməxsus təfsiri olduğunu deyə bilərik. Bilavasitə onun milli mənəvi ənənələrdən yüksək sənətkarlıqla faydalanmasının nəticəsidir ki, rəssamın rənglər və ağ-qara cizgilərlə ifadə olunmuş kompozisiyalarında ənənə və müasirliyin uğurlu nəticəsini müşahidə etmək mümkündür. Rəssamın mənzərə və məişət tablolarında onun müşahidə qabiliyyətinin özünəməxsusluğu üzə çıxmışdır;

**"Əli Verdiyev portret ustası kimi"** adlandırılan **III fəsil** ikiyarımfəsildən ibarət olmaqla rəssamın çoxşaxəli yaradıcılığının əsasını təşkil edən portret janrında yaradılmış dəyərli sənət əsərlərinin təhlilinə əsaslanır. Sözügedən fəslin **1-ci yarımfəsli "Rəssamın yaradıcılığında mənəvi-psixoloji məzmunlu kişi portretləri"** adlanır.

Əgər Əli Verdiyev yaradıcılığını diqqətlə nəzərdən keçirsək əmin olarıq ki, onun mənəvi aləminə ən yaxın olan janr məhz portret janrıdır.

Rəssamın yaradıcılığında müxtəlif xarakterli insanları – əmək qəhrəmanlarını, elm və mədəniyyət xadimlərini, siyasi-ictimai xadimləri, eləcə də rəssamın müasirlərini və doğmalarını əks etdirən portretlər xüsusilə seçilir. Bu qəbildən olan əsərlərdə rəssam təsvir etdiyi şəxsiyyətlərin yalnız zahiri cizgiləri ilə kifayətlənməyib, onların daxili aləmini də özünəməxsus forma-biçimdə bədii görüntüyə gətirmişdir.

Əli Verdiyevin yaradıcılığında əhəmiyyətli yeri tutan portret janrından bəhs edərkən xüsusilə qeyd etmək lazımdır ki, rəssamın portretləri 60-cı illərdən başlayaraq bu günümüzə qədər böyük bir inkişaf yolu keçmiş, tam fərqli üslub xüsusiyyətlərini formalaşdırmağa nail olmuşdur.

Rəssam portret janrında yetərincə səylə çalışaraq bədii ifadə imkanlarını daha da genişləndirmişdir. O, hər bir portretində təsvir olunmuş insanların fərdi keyfiyyətini və peşələrini açıqlamağa kömək edən daha ifadəli təsvir vasitələrinə müraciət etmişdir. Onların ən yaxşılarını modelin zahiri görünüşünün və zəngin daxili aləminin yüksək peşəkar səviyyədə təsvir olunması, o cümlədən özünəməxsus kompozisiya və kolorit həlli fərqləndirir. Müasirlərinin daxili aləminin fəlsəfi təhlilinə maraq göstərən rəssam o dövrün müsbət qəhrəmanının ümumiləşdirilmiş obrazını yaratmağa çalışmışdır. Bu məqsədlə Əli Verdiyev Azərbaycanın qəhrəman oğullarını əks etdirən mövzulara müraciət edir. Daha ge-

niş mənada desək, Əli Verdiyevin yaradıcılığında portret janrını xarakterizə edərkən mərkəzdə insan anlamını görürük. Təsvir etdiyi portret qəhrəmanlarının hər biri rəssam üçün bir şəxsiyyətdir, bu istər alim olsun, istər yazıçı olsun, istər kolxozçu, istərsə də sadə peşə sahibi... Bu insanların portretlərini yaradarkən rəssam hər əsərin üzərində eyni həvəs və məsuliyyətlə çalışmışdır.

Əli Verdiyevin bir sənətkar kimi formalaşmasında və təkmilləşməsində portret janrının müstəsna xidmətləri vardır.Öz yaradıcılıq xüsusiyyətləri, dəsti-xətti ilə həmkarlarından fərqlənən Əli Verdiyev yaradıcılığının bütün dövrlərində portret janrına müraciət edərək, bir-birindən qiymətli əsərlər yaratmağa müəssər olmuşdur. Yaşlı nəslin mahir portret ustalarından biri hesab olunan Əli Verdiyev yaratmış olduğu dəyərli portret əsərləri ilə bir çox uğurlara imza atmışdır.

Çəkdiyi portretlərdə Əli Verdiyevin realist metodunun əsas cəhətləri, onu əhatə edən həyata, müasirlərinin portretinin yaradılmasına marağı duyulur. Rəssamın əmək adamlarını özündə əks etdirən portret əsərlərinin mövzusu bilavasitə həyatdan götürülmüşdü. Əli Verdiyevin bu qəbildən olan portretləri təsvir vasitələrinin yığcamlığı və ifadəliyi, kompozisiyanın sadəliyi və rənglərin şuxluğu ilə seçilir. Eyni zamanda rəssamın əmək adamlarına həsr olunmuş portretlərində əsas səciyyəvi xüsusiyyət ondan ibarətdir ki, rəssam təsvir etdiyi əmək qəhrəmanlarını iş prosesində deyil, məhz istirahət zamanı, müəyyən fasilə zamanı əks etdirmişdir. Bu mənada rəssamın "İnşaatçı" (1977), "Sosialist əməyi qəhrəmanı Akif Amanovun portreti" (1980), "Sosialist əməyi qəhrəmanı Fərman Salmanovun portreti" (1982), "Dülgər İdrisin portreti" (1984) əsərlərinin adlarını çəkmək olar.

"Portretdə təsvir edilən adam nə zaman təkrarolunmaz fərdi cəhətlərə, iti səciyyəyə malik olursa, nə vaxt fəaliyyət göstərdiyi mühitlə daxilən əlaqələndirilirsə, əsər o zaman canlı çıxır və diqqəti daha çox cəlb edir"[4]. Əli Verdiyevin də məhz "Rəssam Mikayıl Abdullayevin portreti" (1973) və "Rəssam Tahir Salahov və Q.Libizov" əsərləri buna gözəl nümunə ola bilər.

Eyni fəslin **digər yarımfəsli "Qadın obrazlarında lirik-poetik duyğuların ifadəsi"** adlanır. Tarix boyu rəssamları ilhamlandıran qadın ob-

[4] Kərimova R. Azərbaycan sovet portret boyakarlığı. Bakı, 1964. 180 s.

razı, o cümlədən qadın gözəlliyinin bədii ifadəsi demək olar ki, hər bir rəssamın yaradıcılığında öz əksini tapmışdır.

Əli Verdiyev də öz yaradıcılığında müxtəlif zamanlarda fərqli forma-biçimdə qadına xas gözəlliyi əks etdirən və bədii-estetik dəyərinə görə bir-birindən gözəl qadın obrazları yaradan Azərbaycan təsviri sənətinin görkəmli nümayəndələrindəndir. Qadına yüksək qiymət verən və bütün yaradıcılığı boyu kifayət qədər bir-birindən bədii məziyyətinə görə fərqlənən, gözəl, maraqlı qadın obrazları yaradan sənətkar hər zaman qadın zərifliyini əsas götürərək istər portret, istərsə də süjetli kompozisiyalarına canlılıq və rəngarənglik gətirmişdir. Bu mənada rəssamın "Zemfira" (1976), "Adilə" (1982), "Pambıqçı R.Novruzovanın portreti", "Qızımın portreti" (1984), "Afaq xanım" (1996), "Türk qadınları" (1997), "Fatma" (2000), "Adilənin portreti" (2005), "Televizor qarşısında" (2005), "Selda" (2005), "Türkan Abbasovanın portreti" (2015) əsərlərini göstərmək olar. Adlarını qeyd etdiyimiz lirik-poetik tutumlu bu əsərlər özünün kompozisiya və ifadə tərzinin aydınlığı, sadəliyi, eləcə də yüksək bədii-estetik dəyərinə görə seçilirlər.

Əli Verdiyevin yaradıcılığında ana obrazı xüsusilə diqqətçəkəndir. Rəssamın ana obrazını əks etdirən tablolarında körpəsinə saf ana sevgisinin, lirik-poetik hisslərin ifadəsi açıq-aydın sezilməkdədir.

Ümumiyyətlə, Əli Verdiyevin çəkdiyi portretlər cəsarətlə işlənməsi, rəngkarlıq dilinin lakonikliyi, sadə və itiliyi ilə tamaşaçıda böyük təsir oyadır. Beləliklə, tamaşaçı Əli Verdiyevin portret əsərlərinə sadəcə baxmaqla kifayətlənmir. O, təsvir olunan obrazların surətinin plastik həllindən, kompozisiyanın sərbəst qanunauyğunluğundan həzz alır. Lakin rəssam kompozisiyanı özündən uydurmur, bunu bilavasitə obrazın daxili mahiyyətində axtarır. Təsvir olunan obrazın əsas xüsusiyyətlərini naturanı müşahidə etmək və portret üzərində bilavasitə işləmək yolu ilə zahirə çıxarır. Ona görə də Əli Verdiyevin portretləri ümumilikdə bitkin və ifadəlidir.

Rəssamın qadın motivli portretlərində zərif boyaların ahəngdarlığı, insani və lirik-poetik duyğular xüsusilə qabarıq hiss olunmaqdadır. Azərbaycan qadınlarına xas gözəlliyi tərənnüm edən tablolarda olan rəng yaxılarının və cizgilərin harmonik vəhdətini eyni zamanda türk qadınlarına həsr olunmuş portretlərdə də görmək mümkündür.

Ümumiyyətlə qadınlar sirli varlıq olduğu üçün rəssamları qəhrəman-

lığa və şah əsərlərin yaradılmasına ilhamlandırır. İşin gözəlliyi rəssamın qadına münasibətində, qadının daxili gözəlliyini duymasındadır. Daha dəqiq desək, qadın obrazının incə lirizmi və gözəlliyi bu portret əsərinin ərsəyə gəlməsinin əsasını təşkil edir. Elə ilk baxışdan obrazın üzündən onun saflığı və incəliyi nəzərə çarpır.

Bu yerdə əlavə edək ki, rəssamın kompozisiya yığcamlığı, obrazların psixoloji ifadəsinə görə seçilən qadın obrazlarında hər bir detal olduqca dürüst və yerində işlənilmişdir ki, bu da öz növbəsində həmin portretlərin daha canlı və ifadəli baxılmasını səciyyələndirir.

Həyati müşahidələrin genişliyi və rəngarəngliyi, fərdi yaradıcılıq axtarışlarının müxtəlifliyi, müasirlik və sevgi hissiyyatı Əli Verdiyevin yaradıcılığını səciyyələndirən əsas keyfiyyətdir. Onun portretlərində təsvir olunan şəxslərin zahiri oxşarlığı, fərdi keyfiyyətləri, eləcə də onların daxili aləmi-psixoloji xüsusiyyətləri olduqca qabarıq şəkildə əks etdirilib.

Dissertasiyanın Nəticə hissəsində rəssamın çoxşaxəli yaradıcılığı yekunlaşdırılır və tədqiqatın əsas nəticələri göstərilir. Onlardan bəlli olur ki:

- Yaradıcılığının erkən dövrlərindən rəssam realizm ənənələrinə tapınmışdır;
- Əməkdar rəssamın müxtəlif janr və mövzulu əsərlərində realizm ənənələrinə sadiqlik, əsərlərinin məzmununu ifadə edən tarixilik və millilik açıq-aydın özünü büruzə vermişdir;
- Yaradıcılığında "sərt üslub"un digər nümayəndələrindən özünəməxsus lirik-romantik ovqatlı əsərləri ilə fərqlilik nümayiş etdirmişdir;
- dünyanın müxtəlif ölkələrinə yaradıcılıq ezamiyyətlərinə getməsi onun dünyagörüşünün formalaşmasına təsir etmiş və əsərlərində öz əksini tapmışdır;
- Yaradıcılığında milli motivlərə maraq göstərmişdir;
- bədii görkəm almış süjetli kompozisiyalar vasitəsilə rəssam özünün yüksək rəsmetmə qabiliyyətinə malik olduğunu təsdiqləmişdir;
- rəssamın süjetli tabloları həm mövzusu, həm də mövzunun bədii şərhi baxımından maraq doğururlar;
- süjetli kompozisiyaların uğurlu bədii həllinin təmin olunmasında müxtəlif rəng çalarlarından uğurla istifadə olunmuşdur;
- Əksər süjetli kompozisiyaları özünün ekspressiv və dramatik məzmun tutumu ilə də yaddaqalandər;
- Əli Verdiyevin əsərlərində bədii görüntüyə gətirilən tarixi mövzular

inandırıcılıqla ifadə olunub;

- Rəssamın özündə tarixi yük daşıyan əsərlərin demək olar ki, ən xarakterik cəhəti onların Azərbaycan – türk xalqının qəhrəmanlıq keçmişinə, bənzərsiz mənəvi dəyərlərinə həsr olunmasıdır;
- Əli Verdieyvin tarixi mövzuda çəkdiyi tabloları bütünlükdə rəssamın doğma xalqının şərəfli keçmişinə sonsuz marağının və rəğbətinin yaddaqalan ifadəsi hesab etmək olar;
- müxtəlif illərdə yaradılan mənzərə və məişət tabloları rəssamın fərqli janrlarda eyni uğurla fəaliyyət göstərdiyini təsdiqləmişdir;
- rəssamın mənzərə və məişət tablolarında onun müşahidə qabiliyyətinin özünəməxsusluğu üzə çıxmışdır;
- rəssamın məişətlə bağlı əsərlərinin bədii-estetik və bədii-texniki həllində rəng və cizgi təzadlarına, eləcə də siluet ifadəliliyinə üstünlük verilməsi aşkarlanmışdır;
- Rəssamın qadın obrazlarını əks etdirən əsərlərinin demək olar ki, başlıca qayəsi qadın gözəlliyini anlatmaqdır, eyni zamanda qadın obrazlarının əksəriyyəti

olduqca təsiredici və lirik-poetik əhval-ruhiyyədə təsvir olunub;

- rəssamın kompozisiya quruluşundakı sərbəstlik, real həyata lirik-poetik baxış onun yaradıcılığını şərtləndirən başlıca cəhətlərdəndir.
- 1990-cı illərin ortalarında Əli Verdiyevin yaradıcılığında yeni bədii-estetik axtarışlarla fərqlənən mərhələ başlayır;
- Əli Verdiyevin yaradıcılıq kontekstində Türkiyə mövzusu xüsusi və unikal yer tutur;
- Fotorealizmin formalaşması Əli Verdiyev yaradıcılığının türkiyə dövrü üçün səciyyəvi xüsüsiyyətlərdəndir;
- İstanbul obrazı Əli Verdiyev yaradıcılığının “Türkiyə dövrünün” erkən mərhələsində əhəmiyyətli yer tutur.

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı  məqalələr dərc edilib:**

1. **Rəssam Əli Verdiyevin yaradıcılığına qısa nəzər** // Elmi əsərlər. (Elmi-nəzəri məcmuə)Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti – Bakı, 2016, səh. 165-171.
2. **Əməkdar rəssam Əli Verdiyevin yaradıcılığında mövzu və janr rəngarəngliyi**// Mədəniyyət dünyası XXXIV buraxılış. (Elmi-nəzəri məcmuə). Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti – Bakı, 2017, Səh. 192-196
3. **Əli Verdiyevin portretləri** // "Qobustan" jurnalı. № 4, Bakı, 2017, Səh. 32-34
4. **Образы Стамбула в творчестве Заслуженного Художника Азербайджана Али Вердиева** // СибАК. Культурология, филология, искусствоведение: Актуальные проблемы современной науки. Сборник статей по материалу IV международной научно-практической конференции. № 1 (5) г.Новосибирск. Январь 2018. Стр. 19-26.
5. **Əli Verdiyevin qadın obrazlarında lirik-poetik duyğuların ifadəsi** // "Harmony" jurnalı, № 17. Bakı, 2018, 3 səh.
6. **Историческая тематика в творчестве Али Вердиева** // Paradigmatapoznani. THE FOUNDERS The science publishing center "Sociosphere-CZ", Academia Retum Civilium – University of Publical and Social Sciences № 2. Prague, 2018, Стр. 31-35.
7. **"Azərbaycanın Əməkdar rəssamı Əli Verdiyevin yaradıcılığında mənzərə janrı"** // "Harmony" jurnalı, № 17. Bakı, 2018, 9 səh.

**Туркан Фейруз гызы Аббасова**

## Творчество Заслуженного Художника Азербайджана Али Вердиева

### Резюме

Данная диссертация посвящена исследованию творчества Заслуженного художника Азербайджана Али Вердиева.

Диссертация состоит из введения, трех глав, семи подглав, заключения, списка использованной литературы и альбома иллюстраций.

Во введении рассматриваются актуальность темы, степень ее изученности, хронологические границы и методология, научная новизна и практическая значимость работы.

В первой главе работы – **«Место творчества Али Вердиева в современной Азербайджанской живописи»** анализируется ранняя стадия творчества художника. Первая подглава этой главы посвящена творчеству Али Вердиева в контексте эстетики «сурового стиля», вторая – рассматривает художественные особенности сюжетных композиций художника, а третья включает турецкий период творчества живописца. В каждой из этих подглав идет изучение творческой деятельности художника раннего периода. Помимо этого, в этой главе рассматриваются успехи художника в области рисунка, а также его педагогическая и общественная деятельность.

Во второй главе – **«Разнообразие сюжетов и жанров в творчестве Али Вердиева»** освящены особенности его жанровой и пейзажной живописи, а также подвергаются анализу его многочисленные полотна.

В третьей главе диссертации – **«Али Вердиев – как мастер портрета»** рассматривается многочисленные работы данного жанра и их художественные особенности.

В заключении подводятся итоги исследования и подводятся основные выводы. Из них следует, что Али Вердиева можно

назвать одним из талантливых представителей национальной живописи, оставивший свой яркий след в истории ее развития.

**Turkan Feyruz Abbasova**

## Creativity of the Honored Artist of Azerbaijan Ali Verdiyev

### Summary

This dissertation is devoted to the work of Ali Verdiyev, Honored Artist of Azerbaijan. The thesis consists of an introduction, three chapters, seven sub-chapters, conclusion, appendix, bibliography and album of illustrations.

The **Introduction** examines the relevance of the topic, the extent of its research, chronological boundaries and methodology, scientific novelty and practical significance of the work.

The first chapter of the work - **“The Place of Creativity of Ali Verdiyev in Modern Azerbaijan Painting”** examines the early stage of the artist’s creativity. The first subchapter of this chapter is devoted to the work of Ali Verdiyev in the context of the aesthetics of “hard style”, the second is about Artistic features of the artist’s plot composition, and the third chapter is devoted to the period of his life and work in Turkey. In addition, it is in this chapter discusses the success of the artist in the field of drawing, as well as his teaching and social activities.

There is a **“Variety of themes and genres in the works of Ali Verdiyeva”** highlights the features of its genre and landscape painting as well as the analysis of his many works in the second chapter.

The third chapter of this work is **“Ali Verdiyev as a master of portraiture”**. There's a viewing many portraits of the artist and artistic features.

In the **Conclusion** summarizes the research and draws the main conclusions. There we can find that Ali Verdiyev is one of the talented representatives of national painting, who left his bright mark on his history.

Tiraj 100№ sifariş N 567

“Ecoprint” nəşriyyatının mətbəəsində
çap olunmuşdur
**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ**

*На правах рукописи*

**ТУРКАН ФЕЙРУЗ гызы АББАСОВА**

# ТВОРЧЕСТВО ЗАСЛУЖЕННОГО ХУДОЖНИКА АЗЕРБАЙДЖАНА АЛИ ВЕРДИЕВА

**Специальность: 6215.01 – Изобразительное искусство**

# А В Т О Р Е Ф Е Р А Т

**Диссертации на соискание ученой степени**
**доктора философии в области искусствоведения**

**БАКУ – 2018**